AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# RESPUBLİKA FƏNN OLİMPİADALARI
# RESPUBLİKA MƏRHƏLƏSİ
# YARIMFİNAL TUR

**11.03.2017**

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT
# 11-ci SİNİF

**1. Hansı cümlədə cümlə üzvlərinin sayı** *"Və M.F.Axundovun dilində ən çox işlənən bağlayıcılardandır".* **- cümləsindəki ilə eyni deyil?**
A) Pambıq tarlalarında gecə və gündüz iş gedir.
B) Hitlerçilər partizanın harada gizləndiyini soruşduqda adamlar səslərini çıxarmırdılar.
C) Onun daşlı səthi üzərində bir qarış torpaq tapmaq belə mümkün deyildi.
D) O, şəkli Ancelikaya göstərdikdə qızı heyrət bürüdü.
E) Yasəmən xalanın son günlərdəki nigarançılığı hətta Mirzənin də nəzərindən qaça bilməmişdi.

**2.** ***Nə, nə də*** bağlayıcıları aşağıdakı cümlələrdən birində fərqli funksiya daşıyır.
A) Arif evə gələndə nə imladan aldığı aşağı qiymət haqqında danışmışdı, nə də müəllimin xəbərdarlığını valideynə çatdırmışdı.
B) Nə Əjdərin danışığından bir şey anlayırdım, nə də cavab vermək iqtidarında idim.
C) Oradan nə bir səs gəlir, nə də işıq görünür.
D) Anam nə məni, nə də qardaşımı evdən bayıra buraxdı.
E) Nə Azər, nə də ki Rauf oyuna gəldi.

**3.** *Mən sizə vurğunam əzəldən bəri,*
*Göylərə ucalan ey qarlı dağlar.*
*Yaşıl sinəsində ellər əylənən*
*Ətirli, çiçəkli, baharlı dağlar.*
**Nümunə haqqında verilənlərdən biri səhvdir.**
A) İlk misrada inversiya müşahidə olunur.
B) III misra bütövlükdə feili sifət birləşməsi formasındadır.
C) II misrada təyin tərkib ilə ifadə olunub, mürəkkəbdir.
D) Axırıncı misrada eyni şəkilçili üç söz var.
E) Nümunədə iki köməkçi nitq hissəsi işlənib.

**4.** *Uşaq oyanan kimi bacısından oyuncağı istədi*. **- cümləsində yazıda da özünü göstərən fonetik hadisənin əksi aşağıdakı cümlələrdən hansında var?**
A) Bizim mövqeyimiz dəyişməz olaraq qalır.
B) Axtarmağa ehtiyac yoxdur, şəklin stolun üstündədir.
C) Axı bunun nəyi pisdir ki?
D) Kəndin bütün kişiləri meydana toplaşıb həmin məsələni müzakirə edirdilər.
E) Həsən nəyi var satıb şəhərə köçmüşdü.

**5.** *Uşağı bir qədər gözləyib getdi.* **- nümunəsində fikrin iki fəqli şəkildə anlaşılması ilə bağlı məqam aşağıdakı hansı cümlədə də var?**
A) Əlində tutmuşdur şanlı bayrağı.
B) Ana öz körpəsini şaxtaya təslim etməyəcəkdi.
C) Baxışlarında sənin dünyaları görürəm.
D) *Ağlayan qadın yaşlı gözlərlə ondan soruşulanları cavablayırdı.*
E) Bakıda bu gün hava müsbət on dərəcədir.

**6. Daha çox fərqli leksik məna bildirən omonimi seçin.**
A) dəstək B) blok C) kaman
D) kamera E) qatar

**7. "Qəhrəman" sözü cümlələrin birində digərlərindən fərqli nitq hissəsi kimi işlənmişdir.**
A) Qəhrəmanlarımızın səyi nəticəsində Lələtəpə yüksəkliyi azad olundu.
B) Qəhrəman əsgərlərimiz düşmənə ağır zərbə vurdu.
C) Bizə Mübariz İbrahimov kimi qəhrəmanlar gərəkdir.
D) Əsərin əsas qəhrəmanı əsər boyunca inkişaf edir, dəyişir.
E) *Qoçaq, igid, qəhrəman* sözləri sinonimdir.

**8. Cümlələrin birində isimlərdən ikisi adlıq haldadır.**
A) Paslanacaq mənsiz şimşək üzəngim.
B) Mən bir oynaq bülbüləm ki, güldən-gülə uçarım.
C) Qəlbi dağlar baş-başadır, o, Şəkidir, o, Şuşadır.
D) Xanım, bu qızıl üzük neçəyədir?
E) Arif və Əşrəf dostdurlar.

**9. Hansı söz *"qadın azadlığı"* mənasını daşıyır?**
A) metamorfoza B) feminizm
C) emansipasiya D) Femida
E) arbitr

**10.** *"Qonaq qonağı istəməz, ev yiyəsi heç birini"* **cümləsindəki obrazlılığının qrammatik səviyyədə göstəricisi aşağıdakı hansı cümlədə də var?**
A) Qonağa get deməzlər, altından döşəyi çəkərlər.
B) Dövlətdə dəvə, övladda nəvə.
C) Palaza bürün, elinən sürün.
D) İgid ölər, adı qalar.
E) Əldən qalan əlli il qalar.

**11.** *I. Bütün sənədləri … soyadlı bir vəkil imzalamışdı.*
*II. Nə qədər şikayət olar: yorulmuş, yata bilməmiş, kədərlənmiş…*
*III. İndi sənə bir söz deyərdim, amma…*
*IV. Həmin hərbi hissə … şəhərinin yanında yerləşirdi.*
*V. Toya bizi çağırmadınız ki …*
**Yuxarıdakı cümlələr çox nöqtənin (…) istifadə məqamlarına görə iki-iki qruplaşdırılsa, hansı cümlə bu qruplaşmanın kənarında qalar?**
A) I B) II C) III D) IV E) V

**12.** *Çiyin, qarın, boyun, burun* **sözlərinə -ın$^4$ şəkilçisi artırılandan sonra 3 ikihecalı, 1 üçhecalı söz alınmışdır. Həmin sözlərin hansı halda olduğunu müəyyənləşdirin.**
A) 3 adlıq, 1 yiyəlik
B) 2 adlıq, 2 yiyəlik
C) 1 adlıq, 3 yiyəlik
D) 4 adlıq
E) 4 yiyəlik

**13. Hansı cümlədə təyin işlənməyib?**
A) Ətrafına gül əkilmiş uşaq bağçası gözəl görünürdü.
B) Uzaq kənddən gələn coğrafiya müəllimi mənə tanış gəldi.
C) Orta məktəb illərindən tanıdığım diş həkimi bizi səmimi qarşıladı.
D) Sinifdə unutduğum kitabı götürməyə gələndə müəllim orada idi.
E) Təmizlənmiş kitab rəfini bir daha nəzərdən keçirdim.

**14. Verilmiş nümunədə cümlə üzvləri arasında işlənmiş sintaktik əlaqələrin sayını müəyyən edin.**
*Zavodun müdiri, doğurdan da, mənim dostumdur.*
A) 3 uzlaşma, 2 idarə B) 2 uzlaşma, 2 idarə
C) 1 uzlaşma D) 1 idarə
E) 2 uzlaşma, 2 idarə, 1 yanaşma

**15. *Səhv* yazılmış sözləri seçin:**
1. yerfısdığı 2. iməcilik 3.buyruq
4. nəqqaş 5. əcayib 6. amplua
A) 2, 5 B) 1, 3
C) 3, 6 D) 2, 6
E) 1, 5

**16. Verilən fikirlərdən biri M.Ə.Sabirin "Amalımız əfkarımız ifnayi-vətəndir" şeirinə aid edilə bilməz.**
A) Vətən, millət və onu düşünənlərin, qeydinə qalanların dilindən yazılmışdır.
B) Şeir satirik üslubdadır.
C) 1907-ci ildə "Molla Nəsrəddin" jurnalında çap olunmuşdur.
D) Namiq Kamalın "Vətəndir" rədifli şeirinə cavab olaraq yazılmışdır.
E) Şeir vətənimizin və xalqımızın milli dirçəlişi, inkişafı ilə əlaədar əsas vəzifələri özündə cəmləşdirir.

**17. "*Aldanmış kəvakib*" əsəri ilə bağlı fikirlərdən hansılar *doğrudur*?**
1. Şah Abbasın iki qadını Abbas Məhəmməd oğlu ilə yenidən kəbin kəsdirmək istəmir.
2. Münəccimbaşı Mirzə Sədrəddin Ərk qalasında qüssədən ölür.
3. Şah Abbasın dördüncü otağında "Şahnamə"əsəri ilə bağlı rəsmlər çəkilmişdi.
4. Yusif Sərrac islam dininə dərindən bələd idi.
5. Yusif Sərrac ingilis elçisi ilə ticarət müqaviləsi imzaladı.
A) 2, 5 B) 1, 3, 5 C) 1, 3, 4
D) 1, 5 E) 4, 5

**18. Verilmiş fikirlərdən yalnız ikisi hansı sənətkara aid edilə bilər?**
- Tərcüməsi var.
- Poema müəllifidir.
- Nəsrlə əsərlər yazıb.
- Satirik əsərlər müəllifidir.
- Dərslik müəllifi kimi də tanınır.

A) H.Cavid
B) C.Cabbarlı
C) R.Rza
D) M.Şəhriyar
E) B.Vahabzadə

**19. *"İblis"* (H.Cavid) əsərindən verilən nümunə hansı obraza aiddir?**
*Sən də Arif qədər düşünsəydin,*
*Ki nələr yapmaq istər İbn Yəmin…*
A) Elxana B) Rənaya C) İblisə
D) Arifə E) İxtiyar şeyxə

**20. Aşağıdakı parçanın S.Vurğunun "Vaqif" dramında kimin dilindən deyildiyini müəyyənləşdirin:**

*Bir ceyrandım, ürkütdülər yatağımdan*
*Bir quş idim, ayrı düşdüm budağımdan*
*Külək əsər, yarpaq düşər, çiçək solar...*
*Viran qalmış mənim bu can otağımdan.*

A) Vaqifin
B) Gülnarın
C) Tükəzbanın
D) Əlibəyin
E) Xuramanın

**21. M.Ə.Sabir və C.Cabbarlı yaradıcılığı ilə bağlı ortaq olmayan xüsusiyyətləri müəyyən edin:**

1. Hər iki sənətkar ədəbiyyatımızda eyni janrda qələmini sınamışdır.
2. Hər ikisi hekayə janrda qələmini sınamışdır.
3. Hər iki sənətkar satirik üslubda şeirlər yazmışlar.
4. Hər iki sənətkar ədəbiyyatımızın eyni dövründə yaşayıb yaratmışlar.
5. Təmsil janrında yazdıqları əsrlərdə hər ikisi yeni nəsil üçün faydalı və ibrətamiz olan mətləblər ifadə olunmuşdur.

A) 1,4,5 B) 2,3 C) 2,4,5 D) 1,3,4 E) 1,3

**22. "*Anamın kitabı*" (C. Məmmədquluzadə) əsərində senzor Mirzə Cəfər qardaşların hansı gizli siyasi işlərlə məşğul olduqlarını güman edir?**

*1. Yoxsulları etiraz nümayişlərinə və tətillərə səsləyən xüsusi vərəqələr buraxmaq.*
*2. Dövlət əleyhinə kitablar nəşr etmək.*
*3. Rusiya müsəlmanlarında Türkiyəyə rəğbət oyatmaq.*
*4. Qafqaz və İran Azərbaycanının birliyinə çalışmaq.*
*5. Əhali arasında bərabərlik və azadlıq ideyalarını təbliğ etmək.*

A) 2, 3, 4 B) 1, 4, 5 C) 1, 2, 5
D) 3, 4, 5 E) 1, 2, 3

**23. Ş. İ. Xətayinin *"Dəhnamə"* poemasından verilmiş nümunə haqqında *səhv* fikri müəyyənləşdirin.**

*Gər dağda, əgər çəməndə idim,*
*Heç bilməz idim ki, qandə idim.*
*İşim gecə-gündüz ahü zari,*
*Tutmazdı dəli könül qərarı.*

A) Şeir parçası Aşiqin dilindən söylənilib.
B) Həm antiteza, həm də epitetdən istifadə edilib.
C) Məsnəvi formasında, rəməl bəhrində yazılmışdır.
D) Son misrada inversiyadan istifadə edilib.
E) Nümunə əsərin ekspozisiyasına ─ *"Aşiqin əhvalı"* hissəsinə aiddir.

**24. *Uyğunsuzluğu* göstərin.**

A) *Çıxdı içimdən tütün, çərxi boyadı bütün* ─ mübaliğə
B) *Tərəflər qol çəkdi müahidəyə, Tərəflər kim idi? Hər ikisi yad!* ─ anafora və bədii sual
C) *Ala gözün gülümsündü, Alovlandım alovundan* ─ metafora
D) *Özün dağsan, sığarmısan dağa sən?* ─ təşbeh və bədii sual
E) *Əyri oturaq, düz danışaq* ─ antiteza

**25. M. Füzulinin *"Leyli və Məcnun"* əsərindən verilmiş nümunəni *hansı obraz* deyir və *kimə* ünvanlanıb?**

*İqbalıma yoxdur etimadım,*
*Müşkül görünür mənim muradım.*
*Bəxtim sifətində bir qəzəl var,*
*Daim qılıram mən onu təkrar.*

A) Leyli – Məcnuna B) Məcnun – atasına
C) Leyli – anasına D) Məcnun – Zeydə
E) Məcnun – Nofələ